# Dünya Bankının nümayəndələri ilə Böyük qayıdış çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Dünya Bankının nümayəndə heyəti ilə görüşüb.**



Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, qonaqlara Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planı çərçivəsində keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi ilə bağlı komitə tərəfindən həyata keçirilən işlər barədə məlumat verilib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri məcburi köçkünlərin təhlükəsiz şəraitdə, könüllü və ləyaqətlə doğma yurda geri qayıdışına şərait yaradır. Bununla yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da diqqəti və qayğısı sayəsində məcburi köçkünlərin sosial müdafiəsinin təmin olunması, yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində zəruri tədbirlər icra edilir.

Əhalinin ləyaqətli yaşayışının təmin edilməsi, maddi rifah halının yüksəldilməsi üçün kompleks tədbirlər həyata keçirilir. Dünya Bankı ilə birgə keçirilən layihə də doğma yurdlarına qayıtmağa hazırlaşan köçkünlərin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətlidir.

Qeyd edilib ki, 18 şəhər və rayonu əhatə edən layihə çərçivəsində keçirilən təlimlərdə 800-ə yaxın məcburi köçkün iştirak edib. Layihə zamanı xüsusilə qadınların iqtisadi fəallığının artırılmasına diqqət ayrılıb. Əlilliyi olan 30-a yaxın keçmiş məcburi köçkün də layihədən faydalananlar arasındadır. Layihə çərçivəsində qənnadçı, dərzi, saç ustası, mühasibatlıq, qrafik dizayn da daxil olmaqla 60-dan çox peşə üzrə təlimlər təşkil olunub, 257 nəfərə peşə istiqamətinə uyğun avadanlıq verilib. Dövlət komitəsinin sədri vurğulayıb ki, layihənin icrasına cəlb edilmiş keçmiş köçkünlər artıq doğma yurda qayıtdıqdan sonra hansı peşə ilə məşğul olacağını bilir, bu da dayanıqlı məskunlaşmaya müsbət töhfə verir.

Dünya Bankının nümayəndələri - "Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi"nin Dünya Bankı tərəfindən layihə rəhbəri Erik Koldvel Conson, Dünya Bankının əməkdaşı Sabina Anne Espinoza, Dünya Bankının Azərbaycandakı fəaliyyəti ilə əlaqəli nümayəndəsi Xalisa Şahverdiyeva məcburi köçkünlərlə bağlı əməkdaşlığın əhəmiyyətini vurğulayıb və bundan məmnunluqlarını ifadə ediblər.

Erik Koldvel Conson bildirib ki, layihə yüksək səviyyədə icra edilib, əldə edilən nəticələr nəzərdə tutulandan xeyli çoxdur: "İnanırıq ki, layihəyə cəlb edilmiş keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıtdıqdan sonra əldə etdikləri bacarıqlardan yararlanacaq, kiçik bizneslərini qurub inkişaf etdirəcəklər".

Azərbaycan. - 2025.-9 oktyabr (№217).- S.4.